**Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin iclasının**

**P R O T O K O L U  № 5**

**Naxçıvan şəhəri** **24 may 2024-cü il**

24 may 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin növbəti iclası keçirilmişdir.

**Sədrlik edən:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli

**Katib:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin üzvü Aidə Allahverdiyeva

**İclasda iştirak etdilər:**

1. Cəlilzadə Aidə Məhəmməd qızı -Komitənin sədr müavini
2. Bağırsoylu Hüseyn Qədirulla oğlu -Komitənin üzvü
3. Hacıyev Emin Davud oğlu -Komitənin üzvü
4. Həsənov Nüsrət Firudin oğlu -Komitənin üzvü
5. İbrahimov Qadir Abbas oğlu -Komitənin üzvü
6. Səfərli Hacıfəxrəddin Yəhya oğlu -Komitənin üzvü
7. Zeynalov Eldar Əhməd oğlu -Komitənin üzvü

**Dəvət olunanlar:**

1. Cəlil Rüstəmov - Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri
2. Əliheydər Qurbanlı - Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin müdir müavini
3. Rəmzi İbrahimov - Ali Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr sektorunun müdiri

**İclasın gündəliyi:**

**Birinci oxunuşda olan “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinə təklif olunan dəyişikliklərin müzakirəsi.**

İclası Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli açaraq bildirdi ki, iclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin 9 üzvü, həmçinin Ali Məclis Aparatının nümayəndələri iştirak edirlər.

Qeyd etdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 42.1-ci maddəsinə əsasən Ali Məclisin komitəsinin iclası onun üzvlərinin yarıdan çoxu iştirak etdiyindən səlahiyyətlidir.

İsmayıl Qəribli iclasın gündəliyinə birinci oxunuşda olan "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinə təklif olunan dəyişikliklərin müzakirəsinin daxil edildiyini bildirdi.

Komitə sədri iclas iştirakçılarına gündəlikdə duran məsələ ilə bağlı dedi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 22 may 2024-cü il tarixli iclasında birinci oxunuşda olan müvafiq Qanun layihəsinə dəyişikliklər edilməsi ilə bağlı deputatlar tərəfindən, eləcə də müvafiq sorğu əsasında Naxçıvan Muxtar Respublikasının Ədliyyə və Maliyyə nazirlikləri, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən edilmiş təkliflər qeydə alınmışdır. Ali Məclisin Hüquq siyasəti komitəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 19.6-cı maddəsinə uyğun olaraq təkliflərin müzakirəsini həyata keçirməlidir.

İsmayıl Qəribli müvafiq qanun layihəsinin Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsi tərəfindən deputatların fərdi e-mail ünvanlarına göndərildiyini və deputatların qanun layihəsindən məlumatlı olduğunu bildirdi.

Layihə barədə məlumat verməsi üçün söz Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Cəlil Rüstəmova verildi.

**Çıxışda:** Cəlil Rüstəmov qeyd etdi ki, "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi birinci oxunuşda Ali Məclisin plenar iclasında müzakirə olundu, qanun layihəsinə verilmiş rəylərlə bağlı məlumat verildi və həmin məlumatlar əsasında qanunun üç maddəsində yenidən düzəlişlər olunaraq ikinci oxunuşda müzakirə olunması üçün Hüquq siyasəti komitəsinə təqdim olundu.

Qanun layihəsinin birinci oxunuşda müzakirəsi zamanı məlumat verildiyi kimi layihə, baxılaraq rəy verilməsi üçün Naxçıvan Muxtar Respublikasının Ədliyyə və Maliyyə nazirliklərinə, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinə təqdim olunub və həmin orqanlardan daxil olmuş rəylər əsasında qanun layihəsinin üç maddəsində dəyişiklik edilməsi qərara alınıb.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin müstəqil səlahiyyətləri olmadığından qurumun adının qanun layihəsindən çıxarılması təklif olunmuşdur. Komitənin birinci iclasında da məlumat verildiyi kimi, Azərbaycan Respublikası Mərkəzi Bankının adının qanun layihəsinə daxil

edilməsi mövcud qanunvericiliklə uyğunluq təşkil etmədiyinə görə, həmin hissənin layihədə ümumi adla - “maliyyə bazarlarına nəzarət orqanı” kimi qeyd olunması və qanunun 80.1, 83.4 və 84.2.2-ci maddələrində “Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin Naxçıvan Muxtar Respublikası üzrə İdarəsindən” sözləri “maliyyə bazarlarına nəzarət orqanından” sözləri ilə əvəz olunması nəzərdə tutulub.

Bildirildi ki, Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən gələcəkdə seçkilərin keçirilməsi vaxtı xüsusi seçki hesablarının açılması və maliyyə hesabatlarının uçotu məsələləri ilə bağlı qaydalar təsdiq edilərkən Mərkəzi Seçki Komissiyası razılaşdırma orqanı kimi Azərbaycan Respublikasının Mərkəzi Bankına müraciət edə biləcəkdir.

Cəlil Rüstəmov diqqətə çatdırdı ki, Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi qanun layihəsində Mərkəzi Seçki Komissiyasının maliyyələşdirilməsi ilə bağlı müvafiq maddəyə etiraz edərək bildirib ki, muxtar respublika büdcəsində bununla bağlı vəsait nəzərdə tutulmadığından əməkhaqqının ödənişi ilə bağlı çətinliklər yarana bilər. Lakin qeyd olunan məsələ ilə bağlı tərəfimizdən izah verilib ki, Mərkəzi Seçki Komissiyasının sədri öz səlahiyyəti dövründə muxtar respublika büdcəsi hesabına ilboyu əməkhaqqı alır. Mərkəzi Seçki Komissiyasının üzvləri isə seçkilərin elan olunduğu gündən seçkilərin nəticələrinin dərc olunduğu günədək əməkhaqqı alacaqdır, çünki seçkilərin keçirilməsi üçün büdcədə nəzərdə tutulan blok vəsaitdə əməyin ödənişi üçün vəsait nəzərdə tutulduğundan bununla bağlı çətinlik yaranmır.

Bildirildi ki, qanun layihəsinin 17.1-ci maddəsində vətəndaşların səsvermədə iştirak etmədikləri hallar ilə bağlı maddəyə “sanatoriyalarda, istirahət evlərində və xəstəxanalarda” sözləri əlavə edilib. Sözügedən əlavə ilə bağlı Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi tərəfindən verilmiş rəydə bildirilib ki, vətəndaşların səsvermədə iştirak etmədikləri hallar ilə bağlı müvafiq maddədə qeyd olunan hissə onların hüquqlarını məhdudlaşdırır. Azərbaycan Respublikasının Seçki Məcəlləsinə istinad edərək təklif ediblər ki, həmin qanuna 17.3-cü maddə əlavə edilsin və qeyd edilsin ki, adıçəkilən yerlərdə səsvermə keçirilmir. Lakin qeyd olunan məsələ ilə bağlı tərəfimizdən izah verilib ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsi Azərbaycan Respublikası parlamentinin – Milli Məclisin deputatlarının, Azərbaycan Respublikası Prezidentinin və bələdiyyə seçkilərinin, həmçinin ümumxalq səsverməsinin – referendumun təşkili və keçirilməsi qaydalarını müəyyən edir. Müzakirəsi aparılan qanun layihəsi isə yalnız Ali Məclisə seçkilərin təşkili və keçirilməsi qaydasını müəyyən etdiyindən vətəndaşların hüquqlarını məhdudlaşdırmır.

**Çıxışda:** Hüquq siyasəti komitəsinin üzvü Hacıfəxrəddin Səfərli qanun layihəsinin ikinci oxunuşda komitə iclasında müzakirəsinin səmərəli olduğunu bildirdi.

**Çıxışda:** Komitə sədri İsmayıl Qəribli qeyd etdi ki, Ali Məclisin Daxili Nizamnaməsinin 19.7-ci maddəsinə əsasən layihənin ayrı-ayrı maddələri üzrə qruplaşdırılmış dəyişikliklərə aparıcı komitənin iclasında baxılır və komitə bu dəyişikliklərlə razı olduqda onları layihənin mətninə daxil edir. Yenidən işlənilmiş

qanun layihəsi ikinci oxunuşda baxılması məqsədilə Ali Məclisin iclasının gündəliyinə salınmaq üçün Ali Məclisin sədrinə göndərilir. Yenidən işlənilmiş qanun layihəsinin ikinci oxunuşa təqdim edilməsi ilə bağlı komitə protokol qaydasında qərar qəbul edir.

İclasda "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Qanununun yenidən işlənilmiş layihəsi ikinci oxunuşda Ali Məclisin plenar iclasına tövsiyə olundu.

**İclasa sədrlik edən:** **İ.Qəribli**

**Katib:** **A.Allahverdiyeva**